*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının*
*27 iyun 2008-ci il tarixli 6 nömrəli*
*Qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Apellyasiya komissiyasında müraciətlərə baxılma Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası (bundan sonra-Şura) haqqında Əsasnamənin 2.4.8-ci yarımbəndinə, 3.6-cı bəndinə və 4.8.7-1-ci yarımbəndinə uyğun hazırlanmış və Şura tərəfindən yaradılan Apellyasiya komissiyasında (bundan sonra-Komissiya) müraciətlərə baxılma qaydalarını müəyyən edir.

1.2. Qaydaların hazırlanmasında məqsəd qanunun aliliyi, şəffaflıq, obyektivlik və ədalət prinsiplərinə uyğun olaraq Komissiyaya daxil olan müraciətlərin hərtərəfli araşdırılmasını həyata keçirməklə müvafiq rəyin qəbul edilməsindən və bu rəyin Şuraya təqdim edilməsindən ibarətdir.

## 2. Komissiyanın fəaliyyətinin təşkili

2.1. Komissiya 3 nəfər Şura üzvündən, 2 nəfər Şura Katibliyinin (bundan sonra-Katiblik) əməkdaşından və 2 nəfər müstəqil ekspertdən ibarət olmaqla 7 nəfərlik tərkibdə Şura tərəfindən yaradılır və daimi fəaliyyət göstərir. Komissiyanın sədri Şura tərəfindən seçilir.

2.2. Komissiya birinci iclasında öz üzvləri arasından Komissiyanın katibini seçir və iclaslarını bu Qaydaların 3.1-ci bəndinə əsasən daxil olan müraciətlərə baxılma zamanı keçirir. Keçirilən iclaslar protokollaşdırılır. Komissiyanın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Komissiya rəyini sadə səs çoxluğu ilə qəbul edir və səslər bərabər olduqda Komissiya sədrinin səsi həlledici hesab olunur. Komissiyanın rəyi sədr və katib tərəfindən imzalanır.

2.3. Komissiyanın sədri:

2.3.1. Komissiyanın işini təşkil edir və iclaslarına sədrlik edir;

2.3.2. daxil olan müraciətləri qruplaşdırır və Komissiyada baxılmaq üçün təqdim edir;

2.3.3. Komissiyanın iclasının vaxtını müəyyən edir və iclası çağırır;

2.3.4. daxil olan müraciətlərin ekspertizasını təşkil edir;

2.3.5. apellyasiya müraciətlərinə baxılma nəticələrinə dair Şuraya məlumat verir.

2.4. Komissiya üzvlərinin hüquq və vəzifələri:

2.4.1. Komissiyanın iclaslarında iştirak edir;

2.4.2. daxil olan müraciətlərlə tanış olur və fikirlərini bildirir;

2.4.3. kənar ekspertin dəvət edilməsi haqqında məsələ qaldırır;

2.4.4. Komissiyanın işi və müraciətlərə baxılması ilə bağlı təkliflər verir;

2.4.5. Komissiyanın protokolu ilə tanış olur;

2.4.6. apellyasiya müraciətlərinə baxılma zamanı bu Qaydaların 1.2-ci bəndində nəzərdə tutulmuş prinsiplərə riayət edir;

2.4.7. Komissiyada baxılan məsələlər haqqında müvafiq rəy qəbul edilənədək məlumatların konfidensiallığını qoruyur;

2.4.8. Komissiya üzvü baxılan apellyasiya müraciətinin nəticəsi üzrə maraqlı olduqda, maraqların toqquşmasının qarşısının alınması məqsədi ilə həmin müraciətə baxılmasında iştirak etmir.

**3. Komissiyaya təqdim olunan apellyasiya müraciətlərinin növləri və təqdim olunma müddətləri**

3.1. Komissiya aşağıdakı məsələlər üzrə təqdim olunan apellyasiya müraciətlərinə baxır:

3.1.1. qeyri-hökumət təşkilatının Şura tərəfindən elan edilmiş qrant müsabiqəsində iştirakı ilə bağlı təqdim etdiyi sənədlərin texniki seçim mərhələsində qəbul edilməməsindən;

3.1.2. Şura tərəfindən qeyri-hökumət təşkilatları üçün elan edilmiş qrant müsabiqəsinin nəticələrindən;

3.1.3. qeyri-hökumət təşkilatları tərəfindən icra olunan layihənin nəticələri ilə bağlı hesabatların qəbuluna dair hərəkətlərdən (hərəkətsizliklərdən);

3.1.4. Şura üzvlüyünə təyinatın həyata keçirilməsi məqsədilə ixtisaslaşmış qeyri-hökumət təşkilatları qruplarından namizədlərin irəli sürülməsi ilə bağlı yaranan mübahisəli məsələlərdən;

3.1.5. Şura tərəfindən rəy verilməsi üçün Komissiyaya təqdim olunmuş digər müraciətlər.

3.2. Apellyasiya müraciəti həmin müraciəti təqdim edən şəxsin öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 7 iş günü müddətində təqdim edilir.

3.3. Apellyasiya müraciəti səlahiyyətli şəxs tərəfindən imzalanır və müraciətdə şikayətin nədən ibarət olduğu göstərilir.

**4. Komissiyada müraciətlərə baxılması və rəyin qəbul olunması**

4.1. Bu Qaydaların 3.1.1, 3.1.3-3.1.5-ci yarımbəndləri üzrə müraciətlərə daxil olduqdan sonra 10 iş günü müddətində, 3.1.2-ci yarımbəndi üzrə müraciətə isə həmin müraciətin təqdim edilmə müddəti bitdikdən sonra 15 iş günü müddətində baxılır.

4.2. Daxil olan apellyasiya müraciətləri Katiblik tərəfindən qeydə alınır.

4.3. Apellyasiya müraciətinə həmin müraciəti təqdim etmiş şəxsin və ya onun nümayəndəsinin iştirakı ilə Komissiyanın iclasında baxılır.

4.4. Apellyasiya müraciətini etmiş şəxs azı 2 iş günü əvvəldən müraciətə baxılma yeri və vaxtı haqqında məlumatlandırılır. Həmin şəxs hər hansı üzrlü hal olmadan Komissiyanın iclasında iştirak etmədikdə, Komissiya onun iştirakı olmadan müraciətə baxır.

4.5. Zəruri hesab olunan hallarda və apellyasiya müraciəti etmiş şəxsin etirazı olmadıqda, Komissiyada müraciətə baxılmasının video çəkilişi aparıla bilər.

4.6. Komissiya iclasında apellyasiya müraciətinə dair işin faktiki halları üzrə araşdırmanı başa çatdırdıqdan sonra aşağıda qeyd olunanlardan biri haqqında rəyini qəbul edir:

4.6.1. apellyasiya müraciətinin əsassız hesab olunması haqqında;

4.6.2. əvvəlki qərara (bildirişə, yekun akta) Şurada yenidən baxılmaqla apellyasiya müraciətinin təmin edilməsi və ya qismən təmin edilməsi haqqında.

4.7. Apellyasiya müraciətlərinə baxılmasının nəticələrinə dair qəbul edilmiş rəy iclas protokolu ilə rəsmiləşdirilir və bu haqda müraciət edən şəxsə və ya onun nümayəndəsinə məlumat verilir.

4.8. Komissiya apellyasiya müraciətlərinə baxılmasının nəticələri haqqında rəyini Şuranın iclasına təqdim edir.

**5. Digər məsələlər**

5.1. Komissiya fəaliyyətini Şuranın inzibati binasında həyata keçirir.

5.2. Komissiya həmçinin daxil olan apellyasiya müraciətlərinin xarakterini, əsas istiqamətlərini təhlil edə və bununla bağlı Şuraya təkliflər verə bilər.

5.3. Katiblik Komissiyanın fəaliyyətinin həyata keçirilməsinin təşkilati-texniki əsaslarını təmin edir.

**QAYDALARA EDİLMİŞ DƏYİŞİKLİKLƏR:**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 10 aprel 2017-ci il tarixli 09 (184) nömrəli Qərarına əsasən Qaydaların 3.1.1-ci və 3.1.4-cü yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

*“3.1.1. qeyri-hökumət təşkilatının Şura tərəfindən elan edilmiş qrant müsabiqəsində iştirakı ilə bağlı təqdim etdiyi sənədlərin texniki seçim mərhələsində qəbul edilməməsindən;*

*3.1.4. Şura üzvlüyünə təyinatın həyata keçirilməsi məqsədilə ixtisaslaşmış qeyri-hökumət təşkilatları qruplarından namizədlərin irəli sürülməsi ilə bağlı yaranan mübahisəli məsələlərdən;”.*